# Eternal return of the same life: Nietzsche's revelation

**Arzu Hajiyeva**
Doctor of philosophical sciences, Institute of Philosophy and
Sociology of ANAS, head of department. Azerbaijan.
E-mail: arzuhaciyeva@mail.ru
https://orcid.org/0000-0001-9078-0327

**Abstract.** Eternal return as a metaphor, concept, idea has already existed in ancient philosophy. Nietzsche, who brought a new spirit to this idea, defined it as "the highest formula of affirmation that can possibly be attained", i.e. the very highest thought. In the article, the essence of Nietzsche's concept of the eternal return of the same, its revelationial and scientific-hypothetical nature is revealed in the philosophical and hermeneutic channel, in the context of the analysis of thoughts on life, fate, death and love for eternity. According to the author, the main advantage of this doctrine is not limited to the arguments confirming its truth, but lays in stimulating thoughts that improve the human personality, helping to understand and appreciate life.
**Purpose:** to indicate the enduring relevance of the problem on the meaning of human life and its philosophical and moral significance.
**Methodology:** systematic approach, logical, comparative and hermeneutic analysis.
**Scientific novelty:** It has been substantiated a thought that the philosophical understanding of the idea of eternity is based on the concept and phenomenon of return; the conceptual and theoretical role of the metaphor of return is revealed; Nietzsche's concept of eternal return of the same is presented as a philosophical version of the doctrine of the perfect man.
**Keywords:** eternal return, Nietzsche, life, death, eternity, thought, philosophy, amor fati.

http://dx.doi.org/10.29228/edu.247
**To cite this article:** Hajiyeva A. (2020) *Eternal return of the same life: Nietzsche's Revelation.* «Scientific works», Vol. 34, Issue I, pp. 27-35
**Article history:** Received — 28.02.2020; Accepted — 11.03.2020

# Həmənki o həyata sonsuz qayıdış: Nitsşenin vəhyi

**Arzu Hacıyeva**
Fəlsəfə elmləri doktoru, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, şöbə müdiri.
Azərbaycan. E-mail: arzuhaciyeva@mail.ru
https://orcid.org/0000-0001-9078-0327

**Annotasiya.** Əbədi qayıdış metafora, anlayış, ideya olaraq hələ antik fəlsəfədə mövcud olmuşdur. Bu köhnə ideyaya yeni ruh gətirən Nitsşe onu fikrin ali formulu, ən möhtəşəm, ən yüksək fikir kimi dəyərləndirmişdir. Məqalədə Nitsşenin həmənkinin əbədi qayıdışı haqqında konseptinin mahiyyəti, vəhyi və elmi hipotez xarakteri fəlsəfi-hermenevtik məcrada və varlıq, həyat və ölüm, tale və əbədiyyətə sevgi haqqında fikirlərin təhlili kontekstində açılır. Müəllifin fikrincə, bu təlimin əsas məziyyəti onun

həqiqiliyini təsdiq edən dəlillərə müncər edilməyib, həyatı anlamağa, qədir-qiymətini bilməyə kömək etməklə, insanı kamilləşdirən düşüncələrə rəvac verməsindədir.
**Məqsəd:** İnsan həyatının mənası haqqında problemin daima aktuallığını və fəlsəfi-əxlaqi əhəmiyyətini göstərmək.
**Metodologiya:** sistemli yanaşma, məntiqi, komparativ və hermenevtik təhlil.
**Elmi yenilik:** əbədiyyət ideyasının fəlsəfi dərkinin qayıdış anlayışı və fenomeni üzərində bərqərar olduğu əsaslandırılmışdır; qayıdış metaforasının konseptual-nəzəri rolu aşkara çıxarılmışdır; Nitsşenin həmənkinin əbədi qayıdışı haqqında konsepti kamil insan haqqında təlimin fəlsəfi variantı kimi təqdim edilmişdir.
**Açar sözlər:** əbədi qayıdış, Nitsşe, həyat, ölüm, əbədiyyət, fikir, fəlsəfə, amor fati.

http://dx.doi.org/10.29228/edu.247
**Məqaləyə istinad:** Hacıyeva A. (2020) *Həmənki o həyata sonsuz qayıdış: Nitsşenin vəhyi* «Elmi əsərlər», № 1 (34), səh. 27-35
**Məqalə tarixçəsi:** göndərilib – 30.03.2020; qəbul edilib – 12.04.2020

## Giriş / *Introduction*

Əbədi qayıdış haqqında ideya müxtəlif xalqların mifologiyasında, antik fəlsəfədə ənənəvi olaraq mövcud olmuşdur. Bununla belə, dahi alman filosofu Fridrix Nitsşenin həmənkinin əbədi qayıdışı, yaxud bütün şeylərin dövr etməsinin sonsuz təkrarlanması haqqında konsepsiyası bu köhnə fikrə yeni ruh, böyük məna gətirərək onu yenidən dirçəltmişdir. Bu konsepsiyanı müasir dövrün M.Haydegger, K.Yaspers, J.Delez, M.Fuko, J.Derrida, F.K. Levit, F.Danto kimi bir çox nüfuzlu filosoflarının tədqiqata cəlb etmələri ona ən müxtəlif fəlsəfi aspektlərdən (kosmoloji, metafizik, antropoloji, mifik, etik və s.) xüsusi önəm verilməsi ilə bağlıdır. M.Haydeggerin anlaşılmazlığına və cürbəcür çətinliklərinə rəğmən, Nitsşenin bütün fəlsəfəsinin əsasında əbədi qayıdış haqqındakı təlimin durduğunu qəbul etməsi bunu təsdiq edir [5, s. 60]. Maraqlıdır ki, filosofların öz fəlsəfi sistemlərinin təməl ideyalarına uyğun sərbəst təfsirləri Nitsşenin bu konsepsiyasının rekonstruksiya edilmiş fərqli variantlarının yaranmasına gətirib çıxarmışdır. Məsələn, J.Delez Nitsşenin əbədi qayıdışını “təşəkkülün təkrarlanması” kimi təfsir edib, “varlıq seçimdir” deyə bu təkrarlanmanın fəallığına istinad edir. Bu baxımdan, əbədi qayıdışda “neqativ olan” qayıtmır. Yalnız o qayıdır ki, o təsdiq edir və ya artıq təsdiq olunub” [2, s. 310]. Bir sözlə, Delezin fikrincə, “əbədi qayıdış hər şeyi nəinki qaytarmır, hətta sınaqlara dözməyənləri məhv edir”. Neqativ, eyni, bənzər, analoji və əks olan deyil, fərqli, bənzəməyən qayıdır [3, s. 357].

M.Serrano Nitsşenin oxucuya az məlum olan qeydlərinə və öz mistik təcrübəsinə istinadla, Nitşenin qəlbinə bir növ yol tapıb, onun, əbədi qayıdış dairəsinin içində öz “Mən”indən başqasının olmadığını, bütün digərlərinin güzgülərin oyunu ilə proyeksiya edilmiş elə özü olduğunu hiss etdiyini düşünür [14].

Əgər Haydegger Nitsşenin əbədi qayıdış təlimini daha çox hakimiyyət əzmi konseptinə bağlayırsa, K.Levit onu Allahın ölümü haqqında ideyadan hasil edir [7, s.67]. Onun nəzərində “Nitsşenin həqiqi fikri” elə bir fikir sistemidir ki, “təməlində Allahın ölümü, ortasında - bundan irəli gələn nihilizm, sonunda - nihilizmin əbədi qayıdışda öz-özünü rəf etməsi durur.” [8, s. 342].

Demək lazımdır ki, mütəfəkkirin həmənkinin əbədi qayıdış təlimini hərfi mənasını başa düşüb təbliğ edəyənlər arasında Maksim Qorki kimi məşhur ədiblər də olmuşdur.

Əslində hər bir alimin, tədqiqatçının hər hansı problemə müraciətinin öz səbəbi, motivi, niyyəti olur. Mənim Nitsşeni xatırlamağım son vaxtlar həyatın mənası, ölümdən sonra həyat, unutqanlıq və mədəni-tarixi yaddaş haqqında araşdırmalarımla əlaqədardır. Odur ki, bu məqalədə Nitsşenin

həmənkinin əbədi qayıdışı haqqında konseptinin mahiyyətini, vəhyi və elmi hipotez səciyyələrini, kamil insan haqqında təlimin orijinal variantlarından biri olduğunu hermenevtik metodun köməyi ilə və varlıq, onun mahiyyəti, mövcudluq üsulu, həyat və ölüm haqqında düşüncələr əhatəsində açmağa çalışmışam. Zənnimcə, bu təlim hər şeydən əvvəl, taleyə və əbədiyyətə sevgi haqqında olub, həyatın mənası haqqında düşünməyə dəvət edir. Bunlar isə hər zaman aktual olub, indi də koronovirusla mübarizə, müharibə təhlükəsi, müxtəlif siyasi konfliktlərlə əlaqədar daha da aktuallaşıb.

## Əsas hissə / *Main Part*

### Əbədi qayıdış əbədiyyətə açılan yol kimi

Vaxt, zaman bütün mövcudat içərisində yalnız insan üçün məna kəsb edir. Saniyə-dəqiqələrin saatlara, günlərə, günlərin aylara, illərə, illərin qərinələrə, əsrlərə, əsrlərin minilliklərə və beləcə sonsuza qədər çevrildiyini, günlərin təqvimdən birər-birər qopub yox olmasının qarşısıalınmazlığını yalnız o anlaya və hiss edə bilir. Bilir ki, varlığı müvəqqətidir, zamanla məhdudlaşıb, bir gün bu dünyaya gələn bir gün bu dünyadan köçəcək. Bəlkə də insanın ən böyük faciəsi elə bu məşum bilikdən başlamışdır. Çünki bir müdrikin dediyi kimi, "həyatın acılıqları insanı ağrıtsa da, yaşamaq istəyir", yəni faciənin kökü insanın bu dünyada gəldi-gedər olduğunu bilə-bilə həyatdan heç vaxt doymamasındadır. Əbəs yerə H.G.Qadamer yunan faciəsinin, yəni faciə janrının, qədim dramların meydana gəlməsini insan təcrübəsinin müvəqqətliliyi, sonlu olmasının dərki ilə əlaqələndirmirdi. Lakin hər şeyə rəğmən, insan böyük kainat tamaşasında ona ayrılmış, səhnədə ani görünüb yox olan epizodik, hətta çox epizodik müsafir rolu ilə heç vaxt barışmamışdır. İnsan özünü tanıyandan bəri ağlının və qəlbinin ölməzlik sorağındakı gərgin işinin mifologiya, din, mistika, elm, fəlsəfə sahəsindəki izləri buna sübutdur. Ən müxtəlif xalqların mif, əsatir qəhrəmanları dirilik suyu axtarışına çıxır, Orta əsrlərdə əlkimyaçılar, həkimlər insanlara əbədi həyat, əbədi gənclik bəxş edəcək iksir kəşf etməyə can atırdılar, dinlər ölümdən sonra insanlara axirət vəd etməklə onları təskin edir, fərdin ölməz ruhu üçün əbədiyyətə, əbədi cənnətə "qapı" açırlar, ən yenisi, ölümdən sonrakı həyat vədləri ilə qane olmayan müasirlərimiz - elmin, texnologiyaların, o cümlədən nanotexnologiyaların gücünə, qüdrətinə bel bağlayan transhumanistlər insanın öz təkamülündə yeni mərhələyə adlayacağı, yüz illərlə ömür sürə biləcəyi, hətta əbədi fiziki ölümsüzlüyə çata biləcəkləri haqqında bütöv bir fəlsəfə yaradıb ideyalarını gerçəkləşdirmək yolunda çalışırlar.

Qəribədir ki, ölüm kəlməsi onun mahiyyətini doğru-dürüst anlamayan uşaq üçün də dəhşətli səslənir. Yadımdadır, dayımgildə ad günü idi. Qohumlardan birinin 4-5 yaşlı uşağı yeməkdən hey boyun qaçırır, böyüklərsə onu hey dilə tuturdular. Mən də öz tərəfimdən onu yeməyə təşviq etmək üçün "bax, yemək yeməsən, belə balaca qalarsan, qüvvən olmaz, böyüməzsən" dedim. Uşaq maraqla mənə baxdı: "Böyüyəndə nə olur ki?". "Böyüyüb məktəbə gedirsən", "Sonra nə olur?"... Beləcə, o, bu "sonra nə olur", "sonra"ları ilə məni əsgərliyə getməkdən qocalana qədər bir insan ömrünün dövrlərini sadalamağa məcbur etdi. Növbəti "sonra"sına "Ölürsən" - deyib elə o andaca peşman oldum, amma artıq gec idi. Uşaq ağlaya-ağlaya qışqırıb etiraz edirdi: "Mən heç vaxt yemək yeməyəcəyəm. Mən böyümək istəmirəm". Məsələnin psixoloji ya pedaqoji tərəfini bir tərəfə qoysaq, maraqlı idi ki, bir insanın adi həyat tsikli (dövrü) haqqında ilk dəfə aldığı bilgidən şoka düşən uşaq dərhal öz uşaq məntiqi ilə ölümdən qurtulmağın heç olmasa həmin an üçün məqbul həlli yolunu tapmışdı: sadəcə, yemə və böyümə. Filosoflar üçünsə, antiklikdən müasirliyimizə qədər, hər halda çoxları üçün bu yol, xilasedici kəmər təki yapışdıqları və nə qədər fərqli anlasalar belə, əbədi qayıdış ideyası olmuşdur.

Həqiqətən də, diqqətlə nəzər yetirsək, görərik ki, ən müxtəlif kontekstlərdə götürdükdə, əbədi həyata qovuşma, yenidən dirçəlmə, dirilmə ifadələrini biz onlara mənaca ən yaxın olan "qayıtma", "qayıdış" məfhumunun köməyi ilə anlayırıq. Bu, dünyanın metafizik izahı cəhdlərinə də xasdır. Əslində bunlarda əbədiyyət ideyası büsbütün qayıdış anlayışı və fenomeni üzərində bərqərar olmuşdur. Odur, "qayıdış"ın fəlsəfənin əsas özünəməxsus anlayışlarından, daha dəqiq olsaq, metaforalarından, məcazlarından biri olduğuna təəccüblənmək lazım gəlmir. Bu metaforada da fikir

və obraz, idrak, məntiq, məna və duyğu, həyəcan, ovqat bir-birilə çulğaşmışdır, bir yerdədir. Fəlsəfi diskurs bu cür metaforalarsız keçinmir, əslində sadəcə olaraq metaforadan ayrılmazdır, çünki genetik təbiətinə görə metaforikdir. Lakin, burada söhbət, əlbəttə, adi, sözün hərfi mənasındakı "metafora"dan getmir. Fəlsəfi metafora bütöv bir dünyagörüşünü zəngin semantik çalarları ilə dərk etməyə kömək edir. Bu metaforalar, Derrida ilə razılaşıb, onun ibarəsi ilə desək, "konseptual və nəzəri mərkəzlərdir", "qeyri-müəyyən və eyni zamanda fəlsəfi mətndə hər hansı başqa şəkildə ifadə edilə bilinməyən anlayışlar"dır [4, s.45].

Belə metafora-istilahlar hər bir dahi filosofun arsenalında vardır. "Əbədi qayıdış" da Nitsşenin "fövqəlbəşər", "hakimiyyət əzmi" kimi "hər hansı başqa şəkildə ifadə edilə bilinməyən anlayışlar" qismindəndir. "Əbədi qayıdış", daha dəqiq, "həmənkinin", yaxud "eyni olanın əbədi qayıdışı" - kainat, bütün mövcudatın sonsuz zaman və məkanda sonsuz sayda eyni şəkildə təkrar olunduğu və təkrar olmaqda davam etdiyi barədə təlimdir. Bu ideya, artıq qeyd etdiyim kimi, təzə deyildi, sivilizasiyanın erkən çağlarında müxtəlif formalarda məlum idi. Dünyanın vaxtaşırı olaraq fəlakətə uğraması və sonra yenidən bərpa olunması haqqında, ölən və dirilən allahlar haqqında qədim əsatirlər bütün xalqlarda və mədəniyyətlərdə mövcuddur. Qədim Misirdə, hind fəlsəfəsində yaranmış dövr edən yaxud fırlanan zaman – "həyat təkəri" haqqında konsepsiya, sonralar Qədim Yunanıstanda pifaqorçuların, stoiklərin, ayrı-ayrı filosofların təlimlərində inkişaf etdirilmişdir. Ümumiyyətlə, antiklik üçün dünyanın quruluşunun xətti modelinə əks olan dövrü qayıdış modeli adi və təbii idi. Platon "Fedon"da bu modeli Sokratın dili ilə belə izah edirdi: "Əgər meydana gələn əksliklər, sanki dövrə cızıb daim bir-birini tarazlamasaydı, əgər yaranma düz xətt üzrə, yalnız bir istiqamətdə getsəydi və heç vaxt geriyə, əks tərəfə dönməsəydi ... nəticədə hər şey eyni surət alardı, eyni xüsusiyyətlər kəsb edərdi və yaranma dayanardı... Və əgər hər şey yalnız birləşsəydi, əsla ayrılmasaydı, çox tezliklə Anaksaqorun sözünə görə "bütün şeylər bir yerdə" olardı... Əgər həyata aid olan hər şey ölsəydi, və ölüb də ölü kimi qalsaydı və yenidən dirilməsəydi, - məgər tamamilə aydın deyilmi, nəticədə hər şey ölər və həyat yox olardı". Platona görə, qayıdışın olmaması "ən ümumi ölüm və məhv"ə aparardı, başqa sözlə, qayıdış olmasaydı, kainat məhv olardı [13, s.72]. Əlamətdardır ki, bu sözləri Sokrat ölümqabağı dostları ilə söhbəti zamanı, ruhların ölməzliyini əsaslandırarkən öz qayıdışına da inamla söyləmişdi.

Buna görədir ki, bir çoxları Nitsşenin "əbədi qayıdış" təlimini filosofun gəncliyində qədim yunan mifologiyası, fəlsəfəsinə marağının reminissensiyası, yəni qeyri-ixtiyari, hətta bir qədər də şüursuz olaraq xatırlaması hesab edirlər. Əslində reanimasiyadan danışmaq daha yerinə düşərdi. Axı o, antikliyin tənəzzülü və xristianlığın yayılması ilə qayıdış haqqında bu qədim nəzəriyyəni onun Qərb təfəkküründə hörmətdən, "dəbdən" düşdüyü, unudulduğu və tərəqqi, xətti inkişaf ideyalarının hakim olduğu bir dövrdə yenidən canlandırmış, diriltmiş, dirçəltmişdir. Onun öz yeni fəlsəfəsinin təməlinə qoyduğu, Haydeggerin təbiri ilə, "əsas metafizik mövqeyi" [6, s. 111] bu köhnə, məlum "əbədi qayıdış" ideyasına elə görünməmiş bir vüsət, miqyas vermişdir ki, çoxsaylı təfsirləri indiyədək onun həqiqi mənasını, sirrini açmaqda acizdir.

**"Həmənkinin əbədi qayıdışı": təlimin bəzi özəllikləri**

Nitsşenin təlimi əbədilik və müddətlilik anlayışları arasında qarşılıqlı əlaqənin xarakterinin özünəməxsus dərkini təmsil edir. "Enerjinin mövcud olması prinsipi əbədi qayıdış tələb edir" [12, s.555] — bu fikir, deyə bilərik ki, Nitsşenin konseptinin əsas elmi dəlilidir. O fərz edir ki, dünyanı enerjinin yaxud qüvvələrin və qüvvə mərkəzlərinin nə qədər çox olsa da, dəyişməz, yəni çoxalıb-azalmayan və məhdud kəmiyyəti kimi təsəvvürə gətirmək olar. Dünyanın mövcudluğunu isə böyük zər oyununa bənzədir, belə ki, bu oyundakı kimi, dünya da ölçülə bilən, başqa sözlə, saymağın mümkün olduğu kəmiyyətdə kombinasiyalar yerinə yetirir. Zaman sonsuz, kombinasiyalar isə məhdud sayda olduğu üçün onlardan hər biri əvvəl-axır; gec ya tez, amma mütləq nə vaxtsa təkrarlanır, hətta sonsuz sayda təkrarlanır. Hər bir "kombinasiya" və onun növbəti "qayıdışı" arasında bütün mümkün kombinasiyalar keçib getməlidir və onlardan hər biri bu sırada tam bir kombinasiya ardıcıllığını şərtləndirir. Bu isə, Nitsşenin fikrincə, tamamilə identik sıraların dairədə dövr etməsini

sübut edir. Deməli, dünya dövretmə kimi sonsuz sayda artıq təkrar olunmuşdur və bu oyununu sonsuza qədər davam edəcəkdir [12, s.557].

Zənnimcə, bu təlimin daha çox maraq və dəyər kəsb edən tərəfi dəlil deyil, düşüncənin inkişafıdır. Əslində bu, qəzavü-qədər fəlsəfəsidir ki, insanları eyni həyatı sonsuza qədər dəfələrlə yaşamağa məhkum edir. Lakin təkallahlı dinlərin qəzavü-qədərindən fərqlidir, sonu axirət, cənnət-cəhənnəmlə bitmir, eyni zamanda ateistlər kimi ölümdən sonra yoxluğu, heç nəyin olmadığını da qəbul etmir. Bununla belə, Nitsşenin təlimi haradasa ateist yönümlüdür, o mənada ki, o, dünya üzərində onu hansısa məqsədə doğru aparan hər hansı ali qüvvə olduğuna inanmır, düşünürdü ki, əgər dünya üzərində ilahi özbaşınalıq yoxdursa, onda dünya hərəkəti dövretmə prosesindən başqa bir şey ola bilməz. Və ən ümumi qayıdış ilk növbədə insan üçün bir növ ölməzlikdir, əbədi həyatdır. Bu əbədi həyatın özəlliyi ondadır ki, hansısa başqa dünyada yox, məhz bu, indi olduğumuz dünyadadır. Belə perspektiv isə fərəhləndirici olmaması bir yana qalsın, dəhşətlidir, iztirablıdır. Mütəfəkkir özü də bunu danmır, onu "Şən elm" əsərinin sonunda (341-ci aforizm) "ən böyük ağırlıq" kimi səciyyələndirir.

"Həmənkinin əbədi qayıdışı", yəni həyatın mənasız, məqsədsiz olmasına rəğmən, labüd olaraq qayıtması, sonunda "yoxluğun" olmaması ideyası Nitsşeyə, öz etirafına görə, 1881-ci ilin avqustunda Zils Maria adlı kənddə böyük qayalığın yaxınlığında anidən, sanki bir vəhy kimi gəlmişdi. O, bunu "ümumiyyətlə yetişməyin mümkün olduğu fikrin ali formulu"adlandırmış [11, s. 165-166], ən möhtəşəm, ən yüksək fikir kimi dəyərləndirmişdir. Əvvəlcə onu gizli saxlamış, bu barədə yalnız özünə ən məhrəm saydığı insanlara, o da eyhamla, səsini alçaldaraq, pıçıltı ilə xəbər vermişdi. İlk dəfə bu "ali formulu" yuxarıda xatırlanan "Ən böyük ağırlıq" adlandırdığı aforizmində və əslində yenə eyhamla, fikri eksperiment yaxud həll etmək üçün test, bir növ ehtimala mümkün rəylər şəklində ifadə edir. O yazır: "Görən sən nə edərdin, əgər gündüz ya gecə, yalqız, tək-tənha olduğun bir vaxtda hansısa şər ruh xəlvətcə yanına gəlib sənə desəydi: "İndi yaşadığın və yaşamış olduğun bu həyatı bir dəfə də və daha saysız-hesabsız dəfə yaşamalı olacaqsan; həm də bu həyatda heç nə yeni olmayacaq, amma hər bir ağrı və hər bir həzz, hər bir fikir və hər bir ah və həyatındakı bütün olmazın dərəcədə xırda və böyük hadisələr yenidən sənə qayıdacaq, - və hər şey eyni qayda və eyni ardıcıllıqla, - elə bu hörümçək də, ağacların arasından süzülən bu Ay işığı da, elə bax bu an və mən də. Varlığın əbədi qum saatı dönə-dönə yenidən çevrilir - sən də onunla bir yerdə, qum içində qum zərrəsi!" [3, s.660]. Daha sonra mütəfəkkir bu xəbəri eşidənin mümkün reaksiyasını təsəvvür etməyə çalışır: görəsən, o, dəhşətə gəlib, xəbər gətirəni lənətləyər, yoxsa onu Tanrı bilib bu "ilahi" xəbəri ehtiramla qəbul edər və mənən dəyişərdi? Eyni, həmən həyatı ən xırda təfərrüatlarında yenidən sonsuz dəfə yaşamaq istərdin sualı onun əməlləri üzərinə çox böyük ağırlıq salardı, yoxsa özünə, həyatına son dərəcədə yaxşı münasibət bəslədiyindən bundan artığını heç arzulamazdı da?... Burada Nitsşenin hələ konkret cavabı yoxdur, məsələni açıq qoyur.

Fəlsəfi ideyalarına bədii don geyindirib, mənaları çoxaldan metaforalarla zənginləşdirdiyi "Zərdüşt belə deyirdi. Hamı və heç kim üçün kitab" romanında (onun ikinci hissəsində) mütəfəkkir əbədi qayıdışı artıq təlim kimi təqdim edir. Burada fövqəlinsandan xəbər verən Zərdüşt həm də əbədi qayıdışın peyğəmbəri və müəllimi kimi çıxış edir. Düzdür, əvvəlcə Zərdüşt "cırtdan", balaca, yəni pis, alçaq, yaramaz, zəif, ləyaqətsiz insanların da əbədi qayıdacağını təsəvvürünə gətirib çox məyus olur, lakin düşünəndə ki, o özü də sonsuz olaraq qayıdacaq, öz missiyasını təkrar-təkrar yerinə yetirəcək, qəlbində ümid qığılcımlanır. Dostları - qartal və ilan onun ürəyindən keçənləri oxuya bilir: "Mən yenə bu günəşlə, bu torpaqla, bu qartalla, bu ilanla qayıdacağam - yeni həyata yox, daha firavan həyata yox, indikinə bənzəyən həyata yox, - mən əbədi olaraq hər məqamında eyni olan həyata qayıdacağam ki, hər şeyin əbədi qayıdışı haqqında yenidən öyrədim, ... yenidən fövqəlinsan haqqında xəbər verim" [11, s.161].

Nitsşenin fikrincə, adi insanlar üçün "əbədi qayıdış", yəni dönə-dönə, təkrar-təkrar eyni ağrı-acılı mənasız həyata qayıtmaq ideyası dözülməzdir, onu yalnız güclü, özünə üstün gəlməyə, öz üzərində ucalmağa qadir olan fövqəlinsan qəbul edə bilər, həm də böyük fərəhlə, sevinclə. Çünki o, zəif insan kimi həyatda məna, məqsəd, vəzifə, əvvəlcədən müəyyən olunmuş hansısa qayda-nizam

axtarmır, əksinə, həyat onun iradəsinə yaradıcılıq üçün mənbə verir. Çiynində ağır məsuliyyət yükü daşıyan fövqəlinsan güclü iradəsi ilə mənasız kainatda həyata sanki məna verir, həyatda mənanın mövcudluğunu təsdiq etmiş olur.

**Amor fati: Nitsşenin insan əzəmətini göstərən formulu**

Nitsşenin əbədi qayıdış təlimi özündə onun fəlsəfəsinin müxtəlif konsept və ideyalarını bir-birilə əlaqələndirir.

Əvvəla, mütəfəkkir qəlblərdə kök salan əbədiyyət sevgisinə istinad edir: fövqəlinsan həyatı, onun mənasızlığını sevir, ona görə ki, əbədiyyəti sevir, onu əbədiyyətə qovuşduran, "adaxlayan" isə qayıdışın nişan halqası, üzüyüdür. Zərdüşt deyir: "Ah, mən Əbədiyyətə və nikah halqalarının halqasına – qayıdış halqasına axı necə can atmayım! Rastıma hələ elə bir qadın çıxmayıb ki, ondan uşağım olmasını istəyim, bir qadından savayı ki, onu mən sevirəm: zira mən səni sevirəm, Əbədiyyət. Zira mən səni sevirəm, ah Əbədiyyət!" [11, s.166].

Qayıdışın olmasını tələb edən daha bir baxış mövcuddur; bu baxışa görə, yenidən qayıtmayan, təkrarlanmayan həyatda heç nə məsuliyyət yükü daşımır, bu həyat əvvəlcədən hər şeyi, o cümlədən hər cür naqisliyi, qüsuru bağışlayır, çünki onun sonunda ölüm durur, hər şey məhv olur və mənasızlaşır. Belə olan surətdə həyat sanki gerçək varlığını itirir, kölgəyə dönür. Milan Kundera Nitsşenin təsiri altında yazdığı, "Varlığın dözülməz yüngüllüyü" adlı məşhur romanında əbədi qayıdış mifinə verdiyi təfsir bu baxışı yaxşı əks etdirir: O yazır: "...təkrarlanmayan həyat kölgə kimidir, o, çəkisizdir, o, əvvəlcədən ölüdür, və o, nə qədər müdhiş, gözəl ya ülvi olmuş olsa belə, bu vahimənin, ülviliyin və gözəlliyin əsla heç bir mənası olmur" [9].

Nitsşenin *Amor fati*, yəni taleyə sevgi, daha dəqiq desək, *öz taleyinə sevgi* konsepti də "əbədi qayıdış"ın əsaslandırılmasına xidmət edir. Hamı bilir ki, hər bir fərdin həyatında gözəl, xoş, sevindirici anlar, hadisələrlə yanaşı səhvlər, itki, məyusluq, uğursuzluq, iztirab, günah, xəstəlik, narazılıq, yəni xoşagəlməz, insanı incidən məqamlar da olur, həm də xoşbəxtlik anlarına nisbətən xeyli çox olur. Səhvlərinə görə təəssüflənmək, peşman olmaq, özünü günahkar bilib əzab çəkmək, bəlkə belə eləsəydim, filan bədbəxtlik üz verməzdi, bəlkə elə eləsəydim, filan itkinin qarşısını alardım, filan vaxt tale üzümə gülsəydi, şanslı olsaydım, uğur qazanardım, xoşbəxt olardım və s. və i.a. deyə ötüb keçənləri düşünüb pərişan olmaq hər bir insana xasdır. Bu tip düşüncələr üzücüdür, iztirab verir. Nitsşenin "insan əzəmətini göstərən formul" tərifi verdiyi *amor fati*si onların zəruri olduğunu görməyi, zərurətə nəinki dözməyi, həm də onu gizlətməməyi, sevməyi tələb edir [11, s.721]. Və əslində bir növ əzablardan qurtuluş yolu, qorunma vasitəsinə çevirir. Mənəvi sarsıntı keçirdiyi dövrdə mütəfəkkir "Şən elm"də yazırdı: "Mən şeylərdəki zərurətə gözəllik kimi baxmağı getdikcə daha çox öyrənmək istəyirəm: beləcə, şeyləri gözəlləşdirənlərdən biri olacağam. Amor fati — bu qoy innən belə mənim sevgim olsun" [10, s. 624]. O, keçmişindən heç nəyi silib atmadan, onu necə var elə, olduğu kimi, hər halında minnətdarlıqla, sevgi ilə qəbul etməyə çağırırdı. Taleyini o dərəcədə sevməlisən ki, ona şükür edib, filosofun öz təcrübəsinə istinadla dediyi kimi, "aslanın ağzına atılmağa da hazır" olasan. Lakin buradan belə qənaətə gəlmək olmaz ki, *amor fati* tale ilə barışıb passivliyə səsləyir, özünükamilləşdirməni inkar edir. Əksinə, mütəfəkkirin fikrincə, taleyini həyatın bütün mənasızlığı, dərd-səri ilə sevərəkdən qəbul etməyə yalnız güclü, yaradıcı, kamilliyə can atan insan qadirdir. Bu mənada, deyə bilərik ki, *amor fati* hakimiyyət əzmi konsepti ilə tarazlanır. Bunu elə Haydeggerin amor fatiyə "mövcud olanın mövcudluğunun mahiyyətinin özünə aidiyyətinə yönələn dəyişdirici əzm" [11, s.155] kimi tərifi verməsi də təsdiq edir.

Bütün dinlər, dini, mistik fəlsəfi təlimlər dünyadakı bütün mövcudatın, insan həyatının keçici, fani olduğunu demişlər. Nitsşeyə görə isə heç nə keçici deyil, çünki hər şey yenidən və həmənki eyni həyatına qayıdacaqdır. Mütəfəkkir "Hakimiyyət əzmi" əsərinin bir yerində yazır: "Bir imperator bütün şeylərin fani olduğunu daima özünə xatırladarmış ki, onlara həddən çox aludə olmasın və onların arasında dincliyini qoruyub saxlaya bilsin. Mənə isə, əksinə, elə gəlir ki, ətrafda olan hər bir şey o qədər inanılmaz dərəcədə çox əhəmiyyətli və dəyərlidir ki, belə tez ötüb keçməsi mümkün olsun: mən hər şey və hamı üçün əbədiyyət axtarıram: məgər yol vermək olarmı ki, bahalı ətirləri və şərabları dənizə töksünlər? - Bir şeylə təsəlli tapıram: hər nə ki olub - əbədidir: dəniz hamısını geri

əndərəcək" [12, s. 555]. Nitsşenin "əbədi qayıdışı" insanı öz həyatının yaradıcısına çevirir, onun hər anına, ən ağır, dəhşətli anına belə böyük dəyər verir. O demək istəyir ki, həyatı elə yaşamaq lazımdır ki, onu sevəsən, bir də və həmişə belə yaşamaq istəyəsən. Əbədi qayıdış ideyası mahiyyətcə insanı mənəvi cəhətdən kamilləşməyə yönəldir. Nitsşe fəlsəfəsinin bu mühüm məqamını romantik şairimiz Hüseyn Cavid yaxşı anlamışdı. O, əsərlərində ümum məhəbbətə, mərhəmətə çağıran Lev Tolstoyun *qayeyi-əməli* ilə əsərlərində mərhəmət əsəri görünməyən, zəiflərin əzilməsini tamamilə təbii bilən Nitsşenin *qayeyi-əməli*ni müqayisə edib belə nəticəyə gəlir: "... eyi (*yaxşı*) düşünülürsə, Nitsşe fəlsəfəsinin batini pək də zahirinə bənzəməyərək, daha səmimi bir mərhəmət və məhəbbətlə nəticələnir. O, Tolstoyun düşdüyü nüqtəyə acı olmaqla bərabər, daha kəskin və həqiqi addımlarla irəriləmək istər: "Hər kəsin məqsudu bir, amma rəvayət müxtəlif..."" [1].

## Nəticə / *Conclusion*

Nitsşenin əbədi qayıdış təlimində sual doğuran sirli, xəyali və ziddiyyətli məqamlar, şübhəsiz, az deyil və bunlar ətrafında diskussiyalar indiyədək səngimir. Çoxsaylı təfsirçiləri, - onların arasında M.Haydegger, K.Yaspers, J.Delez kimi çağdaş dövrümüzün ən görkəmli filosofları da vardır, - bu ziddiyyətləri həll etməyə çalışıblar. Filosofu L.Tolstoy kimi, "yarımdəli alman" adlandıranlar, kinayə, istehza, qınaq obyektinə çevirənlər, ideyalarını bilərəkdən təhrif edənlər də olmuşdur və var. Fikirlərinin təhrifi onu hətta bir zamandan bəri faşist ideoloquna da çevirmişdi. Ancaq nə etmək olar, cəmiyyət tərəfindən fərqli, yanlış anlanmaq, ya ümumiyyətlə anlanılmamaq, təkzib ya təhrif edilmək, hiddətlə zamanın "divanı"na çəkilmək bütün dahilərin qismətinə yazılıb, həm sağlıqlarında, həm də ölümdən sonrakı faciəsi olub.

Lakin məsələ ziddiyyətlərdə deyil, onun dühasının gücündədir ki, öz azad, həm də çox azad iradəsi ilə, onu tənhalığa düçar edən, ağlını başından alan azad təfəkkürü ilə, dövrünə etirazla "Allah ölüb", "onu biz öldürmüşük" hayqırtısı ilə bizi dərindən düşünməyə vadar edir. O, bizi - insan nədir, insanın təbiəti necədir, insanda insanlığın miqdarı nə qədər olmalıdır, əxlaq nədir, azad əxlaq varmı, dünya yaxşılığa, xeyrə doğru irəliləyir, yoxsa əksinə, dünya necə olmalıdır, azadlığın mahiyyətində nə durur, həyat nədir, sonu ölümlə bitən mənasız həyatın mənası varmı, varsa o nədədir, niyə insanlar əzab-iztirablarına rəğmən, ölmək istəmir, yaşamaq istəyirlər, əbədiyyətə can atırlar, taleyi dəyişmək mümkündürmü, seçim etmək asandır, yoxsa çətin, mənəvi kamilliyə aparan yol haradan keçir, hakimiyyət əzmi və şəfqət, sevgi arasında dialektika varmı, tarix nədir, əbədi qayıdış nəyin rəmzidir, reallıqdır yoxsa fiksiya, uydurma, xəyal - deyə tükənmək bilməyən suallara cavab axtarışına sövq edir. Həyatı anlamağa, onun hər anının qədir-qiymətini, dəyərini bilməyə dəvət edir.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. Hüseyn Cavid. Müharibə və ədəbiyyat. "Açıq söz" qəzeti, 26 oktyabr 1915-ci il.
2. Deloz Zhil. Nitsshe i filosofiya. (Per. s fr. O. Khomy pod redaktsiyey B. Skuratova). M. Izdatelstvo "Ad Marginem", 2003.
3. Deloz Zhil. Razlichiye i povtoreniye. (Per. s fr. N. B. Mankovskoy i E. P. Yurovskoy). Sankt-Peterburg: TOO TK "Petropolis", 1998.
4. Derrida Zh. Marks i synovya. Per. s fr. M. «Jloros-altera», «Eccehomo», 2006.
5. Khaydegger M. Lektsii o metafizike. (Per. s nem. i komment. S. Zhigalkina). M. Yazyki slavyanskikh kultur, 2010.
6. Khaydegger M. Nitsshe. Tom I.Perev. s nem. Shurbeleva. http://web.krao.kg/12_filosofia/0_pdf/12.pdf
7. Lovit K. Nitsshevskaya filosofiya vechnogo vozvrasheniya togo zhe. (Per. s nem. V. M. Bakuseva). M. Kulturnaya revolyutsiya, 2016.
8. Lovit K. Ot Gegelya k Nitsshe. Revolyutsionniy perelom v myshlenii XIX veka. Marks i Kyerkegor. (Per. s nem. K. Loshchevskogo). Sankt-Peterburg: "Vladimir Dal", 2002.

9. Milan Kundera. Nevynosimaya legkost bytiya. http://loveread.ec/read_book.php?id=7473&p=1
10. Nitsshe F. Sochineniya v dvukh tomakh. T. 1. M. Mysl, 1990.
11. Nitsshe F. Sochineniya v dvukh tomakh. T.2. M. Mysl, 1990.
12. Nitsshe F. Volya k vlasti. Opyt pereotsenki vsekh tsennostey (nezavershennyy traktat. Per. s nem. E.Gertsyk i dr. M. Kulturnaya Revolyutsiya, 2005.
13. Platon. Sobr. soch. v 4-kh tomakh. Tom 2. M. "Mysl'", 1993, s.72.
14. Serrano Migel. Nitsshe i vechnoye vozvrasheniye. http://www.nietzsche.ru/look/xxb/serrano/

# Вечное возвращение к той же самой жизни: откровение Ницше

**Арзу Гаджиева**
Доктор философских наук , Института философии и социологии НАНА,
заведущий отделения, Азербайджан.
E-mail: arzuhaciyeva@mail.ru

**Резюме.** “Вечное возвращение” как метафора, понятие, идея существовало еще в античной философии. Ницше, привнесший новый дух в эту идею, определил ее как «высшую формулу утверждения, самую высокую, какую только можно постичь», т.е. самую что ни на есть высшую мысль. В статье сущность концепта Ницше о вечном возвращении того же самого, его откровенческий и научно-гипотетический характер раскрывается в философско-герменевтическом русле, в контексте анализа мыслей о жизни и судьбе, о смерти и любви к вечности. По мнению автора, главное достоинство этого учения не сводится к доводам, утверждающих его истинность, а заключается в стимулировании размышлений, совершенствующих человеческую личность, помогая понять и ценить жизнь.
**Цель:** показать непреходящую актуальность проблемы смысла человеческой жизни и ее философско-моральную значимость
**Методология:** системный подход, логический, компаративный и герменевтический анализ.
**Научная новизна:** обоснуется мысль о том, что философское понимание идеи вечности зиждется на понятии и феномене возвращения; выявляется концептуально-теоретическая роль метафоры возвращения; концепт Ницше о вечном возвращении того же самого, представляется как философский вариант учения о совершенном человеке.
**Ключевые слова:** вечное возвращение, Ницше, жизнь, смерть, вечность, мысль, философия, amor fati.